# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 386** **Bakı şəhəri, 7 dekabr 2021-ci il**

***"ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə***

"ASAN müraciət" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 21 avqust tarixli 2232 nömrəli Sərəncamının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətən-daşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə "ASAN müraciət" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarının 1-ci hissəsi ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nda müəyyən edilən keçid dövrü nəzərə alınmaqla, "ASAN müraciət" informasiya sisteminin "Hökumət buludu"na keçidinin təşkili ilə bağlı tədbirlər görsün.

**4.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə - "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"nda qeyd olunan dövlət orqanlarına (qurumlarına) tapşırılsın ki, həmin Əsasnamə ilə müəyyən edilmiş funksiyalarının həyata keçirilməsini təmin etmək məqsədilə 2 (iki) ay müddətində müvafiq tədbirlər görsünlər.

**5.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Preziden-tinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 10 dekabr.- S.7.